**MƏTBUAT ÜÇÜN MƏLUMAT**

**Əlaqə:**
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

# Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri üçün treninqlər təşkil edilib



"Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Gəncə mərkəzi həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" və "Qanunun Aliliyi Hüquq Resurs Mərkəzi" layihələri, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində 21 İyul 2009-cu il tarixində Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) təşəbbüsü ilə təşkilatın nəzdində fəaliyyət göstərən xüsusi qayğıya ehtiyacı olan və məcburi köçkün uşaqların valideynlərindən ibarət Goranboy və Mingəçevir valideyn birliklərində treninqlər keçirib. Treyninq iştirakçılarına təşkilat, qanunvericilik və korrupsiya ilə mübarizə istiqamətində görülən və görülməli olan işlər barədə məlumat verilib. İştirakçılar məlumatlandırıcı vəsaitlərlə, qanunlarla təmin edilib. Tədbirdə iştirak edən sakinlərin üzləşdikləri korrupsiya hüquqpozuntuları ilə bağlı şikayətlərə baxılıb, onlara layihə hüquqşünasları tərəfindən hüquqi yardım göstərilib. Vətəndaşlar daha çox ünvanlı sosial yardım və pensiya məsələləri ilə əlaqədar olan sahələrlə bağlı şikayətlər səsləndiriblər. Hər iki rayonda keçirilən tədbirdə ümumilikdə 41 nəfər iştirak edib və onlardan 12 nəfəri müxtəlif formalarda hüquqi yardımla təmin olunub. Tədbir iştirakçıları bu kimi tədbirlərin gələcəkdə də keçirilməsi təklifi ilə çıxış ediblər.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin mövcud olan Bakı, Gəncə və Lənkəran mərkəzləri ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), Quba və Şəki mərkəzləri isə ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında fəaliyyət göstərir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*